# "İmadəddin Nəsimi-650"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan etməsi ilə əlaqədar rayonumuzda görkəmli söz ustasının həyat və yaradıcılığına həsr olunmuş tədbirlər keçirilir.***



Heydər Əliyev Mərkəzində keçirilən növbəti tədbiri mərkəzin işçisi Kəmalə Qasımova açmışdır. O, qeyd etmişdir ki, möhtərəm Prezidentimiz tərəfindən 2019-cu ilin "Nəsimi ili" elan edilməsi İmadəddin Nəsimi irsinə, ümumiyyətlə, sözə, sənətə, ədəbiyyatımıza, mədəniyyətimizə verilən böyük qiymətin bariz nümunəsidir.

Mərkəzin əməkdaşı Mahirə Kərimova dahi söz ustası Nəsiminin əsərlərinin böyük hissəsinin Azərbaycan dilində olduğunu bildirmiş, Bununla belə böyük şairin dövrünün tələblərinə uyğun olaraq fars və ərəb dillərində də yazıb yaratdığını, buna görə onun bütün şərqdə məşhurlaşdığını qeyd etmişdir.

Tarix-diyarşünaslıq muzeyinin əməkdaşı İlhamə Seyidova çıxışında düz 50 il bundan öncə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dahi söz ustası Nəsiminin 600 illik yubileyinin keçirildiyini vurğulamışdır. O, bu gün ulu öndərin davamçısı Prezident İlham Əliyevin təşəbbüsü ilə şairin 650 illiyinin yüksək səviyyədə qeyd olunduğunu diqqətə çatdırmışdır.

Tədbirdə Nəsiminin şeirlərindən seçmələr səsləndirilmişdir.

**"Qəbələ"**

# 8 Mart - Beynəlxalq Qadınlar Günüdür

1977-ci ildə BMT tərəfindən rəsmiləşdirilmiş Qadınlar bayramı Azərbaycanda geniş qeyd edilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra 8 Mart - Beynəlxalq Qadınlar Günü ölkədə qeyri-iş günü hesab olunur. Artıq cəmiyyətin aparıcı qüvvəsinə çevrilən milli əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilib. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırır, onların hərtərəfli fəaliyyətinə geniş meydan verir, lider qadınların yetişməsi üçün lazımi şəraitin yaradılmasına xüsusi diqqət yetirirdi.

Dövlət qadın siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uğurla fəaliyyət göstərir. Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə iqtisadiyyatının inkişafına böyük töhfələr verirlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir. Azərbaycanın birinci xanımının hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da Azərbaycanın tanıdılması, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində geniş və məqsədyönlü fəaliyyət göstərir. Onun təşəbbüsü ilə keçirilən tədbirlər həm də Azərbaycan gənclərinin potensialından xəbər verir.

# İstehsalat təlimi keçirilir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin heyvandarlıq və bitkiçilik mütəxəssisi ixtisasları üzrə təhsil alan I kurs tələbələri üçün heyvanların yemlənilməsi modulu üzrə istehsalat təlimi dərslərinə start verilib.




Peşə təhsili üzrə "İş yerində təcrübə" dövlət proqramı çərçivəsində istehsalat təlimi "Gilan Dairy Farms" MMC-nin südçülük kompleksində aparılır.

Təlim zamanı kompleksin mütəxəssisləri tərəfindən tələbələrə heyvandarlığın inkişaf etdirilməsində düzgün yemləndirmənin əhəmiyyəti, heyvanların bəslənilməsi qaydaları, süd və ət istehsalı barədə ətraflı məlumat verilir.

**"Qəbələ"**

# Dilimizin saflığını qoruyaq

21 fevral Beynəlxalq Ana Dili Günü ilə əlaqədar rayonun təhsil ocaqlarında silsilə tədbirlər təşkil olunmuşdur. Bu münasibətlə rayon təhsil şöbəsinin dəstəyi ilə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə "açıq dərs", intellektual bilik yarışı və "Azərbaycan dilinin saflığının qorunması" mövzusunda dəyirmi masa keçirilmişdir.

V[a] sinifində keçirilən açıq dərsdə və qeyd olunan digər tədbirlərdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, metodkabinetin müdiri Camal Qurbanov, metodist Aslan Şirazov, məktəbin direktoru Təranə Səlimova və müəllimlər iştirak etmişlər.

Açıq dərsdən sonra keçirilən intellektual oyunda 4 komanda iştirak etmişdir. Ana dilimizə həsr olunmuş intellektual oyunda "Qələbə" komandası öz adını doğruladaraq birinci yerə çıxmışdır. Qaliblərə Fəxri fərman və diplomlar təqdim olunmuşdur.



"Ana dilinin saflığının qorunması" mövzusunda keçirilən tədbiri məktəbin direktoru Təranə Səlimova açmışdır. Direktor ana dilimizin qorunub saxlanması və inkşaf etdirilməsi sahəsində ulu öndər Heydər Əliyevin və ölkə başçısı İlham Əliyevin həyata keçirdikləri tədbirlərdən söz açmışdır.

Arifə Bayramova çıxışında bildirmişdir ki, dünyada altı mindən artıq danışıq dilindən istifadə olunur. Onların cəmi 70-i dövlət dili statusu daşıyır ki, bizim dilimiz də həmin sıradadır. Bu faktla bütün Azərbaycan vətəndaşları fəxr etməli və dilimizin saflığını qoruyub saxlamalıdır. Hər bir xalqın dili onun varlığının əsas amilidir. Şöbə müdiri qeyd etmişdir ki, dilimizin qorunub saxlanmasında, şagirdlərə sevdirilməsində müəllimlərin rolu böyükdür. O, dilimizdən istifadə qaydalarında olan bəzi nöqsanları da tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Azərbaycan dili və ədəbiyyatı fənni üzrə metodist Aslan Şirazov son illər digər dillərdən tərcümə olunan bədii əsərlərdə yol verilən nöqsanlardan söz açmışdır.

Müəllim Rəna Səmədova və digər çıxış edənlər Azərbaycan dilinin dünyanın ən zəngin, dərin köklərə bağlı olduğunu vurğulamış hər bir azərbaycanlının bu dillə fəxr etməli olduğunu bildirmişlər.

**Nəzakət ABDULLAYEVA,**
**məktəbin müəllimi.**

# Qanvermə aksiyası keçirilib

Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nümayəndələri 10 saylı Ərazi Vergilər İdarəsində təşkil olunan qanvermə aksiyasında iştirak ediblər.



Aksiyanın keçirilməsində məqsəd qan xəstəliyindən əziyyət çəkən vətəndaşlara humanitar yardımın göstərilməsi olub.

Vergi orqanlarında bu cür aksiyaların keçirilməsi artıq ənənə halını almışdır.

**"Qəbələ"**

# Rayon mərkəzi xəstəxanasına media tur təşkil olunub

Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Qəbələ Rayon Mərkəzi Xəstəxanasına mediatur təşkil edilib. Jurnalistlər və media nümayəndələri əvvəlcə RMX-nı gəzərək orada yaradılan şəraitlə tanış olublar.

Media nümayəndələrinə məlumat verilib ki, rayonda 12 həkim məntəqəsi, 1 qəsəbə xəstəxanası fəaliyyət göstərir. 8 şöbəsi olan 160 çarpayılıq rayon mərkəzi xəstəxanasında 120 həkim, 365 orta tibb işçisi çalışır.

Bildirilib ki, Qəbələ rayonunun sürətli inkişaf perspektivi nəzərə alınaraq burada yeni, ən müasir standartlara cavab verən xəstəxana kompleksinin tikintisinə başlanıb. Hazırda inşaat işləri aparılan 6 mərtəbəli xəstəxana binasının 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulub.

Qeyd olunub ki, rayonda xəstəxana ilə yanaşı müalicə diaqnostika mərkəzi də fəaliyyət göstərir. Mərkəzdə 4 cərrahi əməliyyat bloku mövcuddur. Onların birində yalnız hepatitli xəstələr əməliyyat olunur. Digərləri isə lor xəstəlikləri və ümumi cərrahi prosedurların gerçəkləşdirilməsi üçün nəzərdə tutulub.



**"Qəbələ"**